# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/39** **17 noyabr 2015-ci il**

**Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar Toplusunun təqdimatı və istifadəsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təqdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün "Milli Fəaliyyət Planı"nın 13.1-ci "Müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası və Beynəlxalq Mühasiblər Federasiyası arasında imzalanmış Memoranduma əsasən Azərbaycan dilinə tərcümə və nəşr etdirilmiş "Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar Toplusunun (Beynəlxalq Audit Standartları)" istifadəsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. Auditorlar Palatası Beynəlxalq Audit Standartları iki cildliyinin 2015-ci il 27 noyabr tarixində müvafiq qurumların, auditorların, elmi ictimaiyyətin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə təqdimetmə mərasimi keçirilsin;

2. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, təqdimetmə mərasimi ilə bağlı tədbirlərin hazırlanmasını və keçirilməsini təşkil etsinlər;

3. Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki,

Beynəlxalq Audit Standartları iki cildliyinin mədaxil edilməsini, müvafiq qurumlara, auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılmasını və satışını təmin etsinlər;

4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri T.Əmiraslanova tapşırılsın ki, Beynəlxalq Audit Standartları iki cildliyinin Beynəlxalq Mühasiblər Federasiyasına göndərilməsini təmin etsinlər;

5. Beynəlxalq əlaqələr şöbəsinin müdiri T.Əmiraslanova, Auditorlar Palatası Aparatının koordinatoru A.Seyidəliyevaya və Analitik, informasiya və təhlil şöbəsinin müdir müavini İ.Zeynallıya tapşırılsın ki, bu sərəncamın mətni azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilin.

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri** **V. NOVRUZOV**